| | |
|---|---|
| **AKTIN NÖVÜ** | Qanunlar |
| **QƏBUL EDİLDİYİ TARİX** | 19.05.2020 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 105-VIQD |
| **ADI** | “Əmanətlərin sığortalanması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 08-07-2020, Nəşr nömrəsi: 130), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-07-2020, Nəşr nömrəsi: 07, Maddə nömrəsi: 825) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 08.07.2020 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 090.010.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | 12202005190105 |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 13.07.2020 |

**"Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, 2, maddə 79; 2009, 6, maddə 400, 7, maddə 517; 2016, 3, maddələr 394, 421; 2017, 7, maddə 1310; 2019, 1, maddə 31) 19-cu maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 19.4-cü maddədə "Azərbaycan Respublikasının Prezidentinə" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma)" sözləri ilə əvəz edilsin.

2. 19.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"19.5. İllik hesabata aşağıdakılar daxildir:

19.5.1. Fondun illik maliyyə hesabatları;

19.5.2. iştirakçı bankların reyestri.".

3. 19.6-cı maddədə "mühasibat balansı, pul vəsaitlərinin hərəkəti, vəsaitlərin idarə edilməsindən əldə olunan gəlirlər (zərərlər) barədə hesabatların" sözləri "maliyyə hesabatlarının" sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 19 may 2020-ci il
105-VIQD